2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 03 yanvar 2014-cü il tarixli 119 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 05 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsindən Qızılağac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Kərimli Kərim Fazil oğlunun 2015-ci il yanvarın 3-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq araşdırılmışdır.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Araşdırma zamanı 71 saylı Masallı kənd seçki dairəsi dairə seçki komissiyasının sədrinin, həmin seçki dairəsinin 32, 33 və 39 saylı seçki məntəqəsi məntəqə seçki komissiyası üzvlərinin, həmçinin seçki məntəqələrində müşahidə aparmış müşahidəçilərin izahatlarına əsasən səsvermə günü hər hansı qanun pozuntusunun və ya saxtakarlığın edilməsi iddiası öz təsdiqini tapmamışdır.

Belə ki, müşahidəçilər B.A.Qəribov, Q.V.Məmmədov, B.F.Abbasov, F.B.Abbasov, İ.Ə.Məhərrəmov, M.A.Məmmədov, A.A.Qurbanov, R.Z.Abbasov, E.A.Kərimov, İ.N.Abdullayev, M.E.Abışov, R.A.Əliyev, S.Ə.Əhmədov, seçicilər Ə.Ə.Ağayev, B.V.Əliyev, F.S.Əzimov, R.A.Əliyev R.Ə.Məmmədov, məntəqə seçki komissiyasının üzvləri H.Ə.Ələkbərov, M.A.Əliyev, İ.M.Məmmədov, Q.N.Bağırov, İ.Ə.Kərimov, Ə.M.Məlikov, Ş.H.Həsənov, M.N.Kərimov, H.N.Nağıyev, V.R.Fətullayev və digərləri izahatlarında bildirmişlər ki, səsvermə prosesi seçki qanunvericiliyinin tələblərinə uyğun təşkil edilmiş və keçirilmişdir. Səslərin hesablanması başa çatdıqdan sonra səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyalarının protokolları qanunvericiliyə uyğun tərtib olunmuş, komissiya üzvləri tərəfindən imza edilmiş, protokolun bir nüsxəsi məlumat lövhəsindən asılmış, surətləri səsvermə otağında olan müşahidəçilərə və qeydə alınmış namizədlərə təqdim olunmuşdur.

Araşdırma prosesində şikayətçinin iştirakı təmin edilmiş və onun arzusuna uyğun olaraq ekspert qrupunun üzvü tərəfindən qəbul edilmişdir. Şikayətçi K.F.Kərimli ilə aparılan söhbət zamanı ona şikayət ərizəsində göstərdiyi hallara dair bəzi suallar verilmişdir. Belə ki, şikayətçi öz ərizəsində əsas hal kimi səsvermənin yekunlarının MnSK-larda deyil, DSK-da hesablandığını bildirmişdir. Lakin, söhbət zamanı onun tərəfindən foto material kimi təqdim edilmiş MnSK-ların səsvermənin nəticələri haqqında protokollarının foto şəkillərinin haradan

əldə edilməsi soruşularkən, o, bildirmişdir ki, foto şəkillər seçki məntəqələrində çəkilib. Daha sonra K.F.Kərimli səslərin MnSK-larda sayılması faktını təsdiq etmiş və bununla da səsvermənin nəticələrinin MnSK-larda hesablanması faktı sübuta yetirilmişdir.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim :**

1. 71 saylı Masallı kənd seçki dairəsindən Qızılağac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Kərimli Kərim Fazil oğlunun 03 yanvar 2015-ci il tarixli 119 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin seçki dairəsi dairə seçki komissiyasının 29 dekabr 2014-cü il tarixli 22/81 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov